# زكاة الفطر

# Fitrə zəkatı

Azərbaycan dili

Şeyx Heysəm Sərhan

"Sünnə" tədris mərkəzinin rəhbəri

اللغة الأذرية

Tərcümə edən: İlqar Eyvazoğlu

5

ALSARHAAN.COM
MAHADSUNNAH.COM

# ORUCUNU NAQİSLIK VƏ NATƏMİZLİKLƏRDƏN NECƏ TƏMİZLƏMƏK OLAR?

Yoxsulların və kasıbların qəlbinə necə xoşbəxtlik gətirə bilərsən ki, onlar da sənin sevindiyin kimi bayramda sevinsinlər?

**Bu əsərə diqqət yetir!**

İbn Abbas (Allah ondan razı olsun) buyurub:

“Allah Rəsulu ﷺ fitrə zəkatını oruc tutanı boş və ədəbsiz sözlərdən təmizləmək və yoxsulların yeməyi üçün vacib etmişdir.” (Abu Davud /1609)

Fitrə zəkatını hər bir müsəlman öz adından və arvadı və uşaqları kimi xərcləməsi vacib olduğu şəxsin adından ərzaq olaraq çıxarması vacibdir. Bu əgər həmin gün öz yeməyindən və himayəsində olanların yeməyindən artıq olarsa vacib olur.

Müəyyən bir məbləğə çatması şərt deyil.

Hər bir insan üçün lazım olan miqdar isə, insanların qidalandığı xurma, düyü və mərcimək kimi hər bir toxum və bəhərdən ibarət olan bir saa (qab) ölçüsü qədərdir. Təxminən 2.6 kq.

İbn Ömər (Allah ondan razı olsun) rəvayət edir ki, Allah Rəsulu ﷺ buyurmuşdur:

“Fitrə zəkatı müsəlmanlardan kölə və azad, kişi və qadın, cavan və qocaya xurma və ya arpadan ibarət olan bir saadır (qabdır).”

Onu camaat namaza çıxmazdan əvvəl paylamağı əmr etdi. (Buxari və Muslim)

- Ramazan ayının son gününün qürub vaxtı bunu yerinə yetirmək vacibdir.
- Bayram namazından əvvəl çıxarmaq daha fəzilətlidir.
- Bayrama bir-iki gün qalmış çıxarmaqda qəbahət yoxdur. Yəni İyirmi səkkizinci gecədən başqalaraq. Çünki ay iyirmi doqquz və otuz gündür.
- Bayram namazından sonraya onu saxlamaq olmaz.

Kim bayram günü fitrə zəkatını heç bir üzürü olmadığı halda çıxarmazsa, günahkardır və onu qəza etmək vacibdir. Buna görə də onu könül xoşluqla və savabın Allahdan umaraq verməyə başla.

Uca Allah buyurur:

قال تعالى: ﴿يَـٰٓأَيُّهَا ٱلَّذِينَ ءَامَنُوٓا۟ أَنفِقُوا۟ مِمَّا رَزَقْنَـٰكُم مِّن قَبْلِ أَن يَأْتِىَ يَوْمٌ لَّا بَيْعٌ فِيهِ وَلَا خُلَّةٌ وَلَا شَفَـٰعَةٌ ۗ وَٱلْكَـٰفِرُونَ هُمُ ٱلظَّـٰلِمُونَ ﴿٢٥٤﴾﴾ [البَقَرَة : ٢٥٤]

"Ey iman gətirənlər! Alış-verişin, dostluğun və şəfaətin olmayacağı gün gəlməmişdən öncə sizə verdiyimiz ruzidən (Allah yolunda) xərcləyin! Kafirlər isə zalımdırlar." (Bəqərə surəsi, 254-cü ayə)